**"Yeyinti məhsullarının keyfiyyətinin və təhlükəsizliyinin təmin edilməsi sahəsində standartlara və tələblərə əməl olunmasına dövlət nəzarətinin həyata keçirilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 16 avqust tarixli 154 nömrəli qərarına əlavə və dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikasının 2008-ci il 16 dekabr tarixli 744-IIIQD nömrəli Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 13 fevral tarixli 154 nömrəli Sərəncamının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 16 avqust tarixli 154 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il , №8, maddə 783; 2006-cı il, №5, maddə 472; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 21 yanvar tarixli 12 nömrəli qərarı) ilə təsdiq edilmiş "Yeyinti məhsullarının keyfiyyətinin və təhlükəsizliyinin təmin edilməsi sahəsində standartlara və tələblərə əməl olunmasına dövlət nəzarətinin həyata keçirilməsi Qaydaları"nın 5.2-ci bəndinin dördüncü abzasında "yeyinti" sözünün əvvəlinə "qanunvericilikdə digər hal nəzərdə tutulmamışdırsa," sözləri əlavə edilsin, 5.6-cı və 14.4-cü bəndlərindən ", "ekoloji təmiz" " sözləri çıxarılsın.

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikası Baş nazirinin birinci müavini**
**Y.EYYUBOV**

Bakı şəhəri, 30 mart 2009-cu il
№ 48